# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI

# XIV INTERNATIONAL SCIENTIFIC RESEARCH CONFERENCE

08.07.2023

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 2.255**

---

## XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 2.255**

---

## XIV INTERNATIONAL SCIENTIFIC RESEARCH CONFERENCE

**(08.07.2023)**

**Bakı – Baku**
**2023**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**e-mail**
beyn.konfrans@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10. 36719**

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova

**Məsul katib**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

**ÜZVLƏR**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Onur URAL**, Səlcuq Universiteti / Türkiyə
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Bəyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti /Qazaxıstan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhanə HÜSEYNOVA**, / Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti /Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə. Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Georgi DUKA**, Moldovan Academy of Sciences / Moldova

### Executive secretary

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

### MEMBERS

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS /Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Ibrahim JAFAROV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANI**, The Universty of Texas at Tyler / USA
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Firat University / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Onur URAL**, Seljuc University / Turkey
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan

**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University, Tabriz / Islamic Republic ofIran
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration underthe President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University /Azerbaijan
**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairsof the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute /Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Dashgin GANBAROV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuc University / Turkey
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 7-10
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 7-10
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Əsmər Hüseynova**
AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
esmer74.17@mail.ru

## MÜASİR TEATRŞÜNASLIQDA TEATR VƏ DRAM ƏLAQƏLƏRİ (ƏSƏD CAHANGİRİN YARADICILIĞI ƏSASINDA)

***Açar sözlər:*** *Əsəd Cahangir, teatr tənqidçisi, repertuar, tamaşa, müasir teatr*

***Keywords:*** *Asad Jahangir, theater critic, repertoire, performance, modern theater*

Azərbaycan müasir teatrşünaslığında zamanla addımlayan bir çox tənqidçilərdən fərqli yanaşma sərgiləyən Əsəd Cahangir. Ədəbi prosesi zaman makinəsi kimi, davamlı olaraq öz yaradıcılığı ilə zənginləşdirməyi bacaran ədəbiyyat adamıdır. Çağdaş teatrların repertuarlarında sovet dönəminə nisbətən, aşağı səviyyəli tamaşaların səhnəyə “yol açma məsələsi” mövzusu həmişə aktualdır. Bu barədə teatr tənqidçilərinin fikirləri fərqli olduğu qədər də tədqirəlayiqdir. Tamaşalarda problemləri tapmaq, mahiyyətini çözmək tənqidçidən orijinallıqla yanaşı, həm də qərəzsiz yanaşma tələb edir. Əsəd Cahangirin tənqidi sərtlikdən uzaq və təqdiredici ştrixlərlə zəngindir. Tanınmış ədəbi tənqidçi, ədəbiyyatşünas

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

Əsəd Cahangir diqqət çəkən imzalardan biri olmaqla, qələmi ilə yanaşı, söz ilə də xariqələr yaratmağı bacarır. Sözünün çəkisinə bələd olan tənqidçi onu xəsisliklə işlətmək iqtidarındadır. Çünki onun öz yazı üslubu, öz yanaşma tərzi var. Teatr üçün müasirlik yeni anlayış olmadığı kimi, zaman da müasirlik üçün yetərsay ola bilməz. Son dövr cəmiyyətlə birlikdə teatr da inkişaf etmiş, forma olaraq yeniliklərə yelkən açmışdır. Əlbəttə sənəti cəmiyyətdən ayrı düşünərək, göz önündə canlandırmaq mümkün deyil. Buna uyğun olaraq teatr tənqidçisinin də fərqli ampulada çıxış etmək hissi ən az ehtimal daşıyır. Tamaşalarda axtarış və tapıntılar çoxdur və teatr tənqidçisi yüksək bədiilik hissinə malik olmalıdır ki, bunları bir yerə toplayıb qiymətləndirməyi bacarsın. Bəllidir ki, bu gün ədəbiyyatımızda Əsəd Cahangir qədər müasir teatr repertuarını izləyə bilən şəxslər azlıq təşkil edir. Tamaşalarda problemləri axtarıb tapmaq, onun mahiyyətini çözmək tənqidçidən orijinal yanaşma tələb edir. Ədəbi prosesə layiq olduğu dərəcədə yazılar təqdim etmək gücü, cəsarəti nə qədərdirsə, ona yönələn tənqidlərə hazır mövqe almaq da Əsəd Cahangirə məxsusdur. Müasirləri tərəfindən özü də tənqid olunan, istedadı ilə istənilən mətn haqqında müəyyən (fərq etməz, müsbət və ya mənfi) rəy yaratmaq bacarığı onun işinə olan məsuliyyətindən, ustalığından xəbər verir: "Əsəd Cahangirin xarakterinə məxsus ardıcıllıq, stabillik onun yaradıcılığına da təsir edir. O, seçdiyi imzalar üzərində ardıcıl dayanmağa, zaman-zaman onların yaradıcılığına qayıtmağa üstünlük verir. Hərçənd ki, Əsədin qələminə düşmək istəyənlərin sayı həddindən artıq çoxdur və belə durumda öz seçiminə sədaqəti qoruyub saxlamaq o qədər də asan deyil, amma Əsəd bu münasibətlər ardıcıllığını qoruyub saxlaya bilir" (Cahangir, 2021: 13). Onun yaradıcılığının böyük hissəsini dramaturgiya, teatrın sehirli

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

aləmi əhatə etməsinə baxmayaraq, ədəbiyyatın və incəsənətin bütün sahələri onun maraq dünyası çərçivəsindədir.

Çağdaş teatrların repertuarlarında aşağı səviyyəli tamaşaların səhnəyə yol açması göz qabağındadır. Bunu bəzən "bəsit" yazılan ssenarilərlə, bəzən də teatrların maddi bazasının zəif olması, dövlət tərəfindən ayrılan vəsaitin az olması ilə əlaqələndirirlər. Doğrudur, bir çox teart rəhbərlərinin çıxış yolu kimi (daxili imkanlar çərçivəsində) müəyyən mənada teatrların "ayaqda qalmasına" nail oldular. Razılaşmaq lazımdır ki, onların bu məsələlərin öhdəsindən gəlməsi faktını danmaq ədalətsizlik olar. Qarşılaşdıqları hər çətinlik (dövlət planı, repertuar seçimi, aktyorların "xətrinə dəymədən" rol bölgüsü, tamaşaçı toplamaq, reklam, inzibati məsələlər və sairə) onların yaradıcılıq uğurları kimi izah oluna bilər. Əsəd Cahangir dövlətin teatrlara göstərdiyi qayğı və islahatlarla bağlı fikirlərini belə analiz edir: "Son illər dövlət büdcəsindən ayrılan vəsait hesabına bir çox teatrlar ən yeni tələblər əsasında təmir olunub və istifadəyə verilib. Amma sözün geniş mənasında həyatımız və teatrımızda təmir işləri hələ başa çatmayıb. Keçid və yenidənqurma epoxası davam edir" (Cahangir, 2021: 16).

Yeni imzaların az olması və ən əsası müasir dramaturgiyanın "keçmişə söykənmə ənənəsi" buxovundan ayrıla bilməməsi bugünkü bütün teatrlar üçün xarakterik səciyyə daşıyır. Bu baxımdan gənc aktyorların ötən illərin yaradıcı kollektivinin basqısı altında (fiziki və mənəvi) çalışmasının çətinliyi onların sənətinə təsirsiz ötüşməyə bilməz. Canlandırdıqları personajların işarə və dil köməkliyi ilə dramaturgiyada canlanma yaratmağa çalışan gənc aktyor nəsli yeknəsəqlik yaratmadan buna cəhd edir. Bu barədə bir çox teatr tənqidçiləri, teatrşünaslar incə toxunuşlarla, sənət fədailərinin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

ruhunu incitmədən fikirlərini izah etməyi bacarmışlar. Əsəd Cahangirə görə Azərbaycanda aktyor sənəti ötən əsrin əvvəllərindən bu günə kimi üç mərhələdən keçib. Birinci mərhələni “qızıl dövr” (30-40-cı illər) adlandırmaqla, bu dövrün sənət temprамentləri ilə əhatə olunduğunu vurğulayır. İkinci dövrü lirikaya bağlayıb “gümüş dövr” (60-90-cı illər) kimi qeyd edərək, müəyyən aktyorların adı ilə əlaqələndirir. Üçüncü dövrü isə 90-cı illərdən bu günümüzə gələn “bürünc dövr” saymaqla, özünəməxsusluğun olmaması ilə “tənqid” edir: “Və Azərbaycan teatrının xüsusən də gənc aktyoru öz sənət taleyindən razı deyil. Narazı qalmağa da haqqı var. O aldığı cüzi maaşla dolana bilmir, tamaşadan çıxıb beş-on manat pul dalınca teleşouya, restorana qaçmaq onun heysiyyətini zədələyir, sənətkar qüruruna toxunur. Onun rol haqqında düşünməyə vaxtı qalmır”. (Cahangir, 2021: 24). Tənqidçi dramaturqun, rejissorun əməyini itirmədən aktyorun fəth etdiyi zirvənin əlçatmaz olduğunu böyük məmnunluqla təsdiqləyir.

Müasir teatrşünaslıqda teatr və dram əlaqələrinin inkişaf dinamikası əsasən dramaturqdan aslıdır. Sovet dönəmində tamaşanın uğurlu alınması üçün dramaturqlar bir növ bəhsə girirdilər. Bu gün Əsəd Cahangir sovet dönəminin teatr xadimlərinin Azərbaycan teatrına bəxş etdikləri xidmətlərini yüksək qiymətləndirməklə, müasir dramaturqlara da eyni diqqət, eyni münasibət sərgiləyir.

## Ədəbiyyat

1. Cahangir, Ə. (2021). Dionisin şərəfinə. Teatral adam. Bəhram Osmanov, s.13-635.
2. Cahangir, Ə. (2021). Dionisin şərəfinə. Nə var, nə yox, teatr, s.16-635.
3. Cahangir, Ə. (2021). Dionisin şərəfinə. Teatr aktyorda qurtarır, 24-635 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Aysel Şükürova**
Azərbaycan Respublikası
DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

# İNGİLİS DİLİNDƏ NİTQ PORTRETİ ANLAYIŞI

***Açar sözlər:*** *dil, koqnitiv dilçilik, diskurs, nitq, mətn, portret, informasiya, kommunikasiya*
***Keywords:*** *language, cognitive linguistics, discourse, speech, text, portrait, information, communication*

Portret termini müxtəlif elm sahələrində özünəməxsus şəkildə təsvir olunur. Belə sahələrə koqnitiv dilçiliklə yanaşı ədəbiyyatşünaslığı, psixologiyanı, hüquq mühafizə orqanlarının fəaliyyət sahəsini aid edə bilərik. Nitq portretinin linqvistik nöqteyi-nəzərdən təhlili maraq doğurur. Belə ki, nitq portreti natiqin yazılı və şifahi çıxışlarının məcmusu olub adresant və adresat arasında ünsiyyət zamanı yaranır.

Eyni zamanda, nitq portreti leksik-qrammatik, üslubi və psixolinqvistik xüsusiyyətlərlə səciyyələnərək informasiyanı təqdim edən şəxs haqqında fikir formalaşdırır. Nitq portretinin bir sıra növlərini müəyyən etmək olar. Məsələn, danışanın obrazına onun cəmiyyətdəki sosial qruplara mənsubluğu mövqeyindən baxılaraq siyasi-ideoloji portreti təhlil etmək olar. Eyni zamanda, keçmişə aid olan araşdırmalar nəticəsində xronoloji cəhətləri ilə fərqlənən tarixi portretin adını çəkə bilərik. Qeyd etmək lazımdır ki, tarixi portret həm də müxtəlif dövrlərin və fərqli nəsillərə aid olan natiqlərin müqayisəsi nəticəsində təsvir olunur.

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

Nitq portreti natiqin cinsi, yaşı, peşəsi, anadan olduğu yer, təhsili, mədəniyyəti, nitq qaydalarına riayət etməsi və ünsiyyət prosesi nəzərə alınaraq koqnitiv-praqmatik yanaşma vasitəsi ilə qurulur. Bu məqsədlə diskursiv portretin sahibinə aid olan mətnlər seçilir.

Məşhur insanların nitq portretinin təsviri maraqlı ola bilər. Məsələn, XX əsrin görkəmli siyasətçilərindən biri olmuş Vinston Çörçillin (Sir Winston Leonard Spencer-Churchill, 1874-1965) təqdim etdiyi diskurs nümunəsinə nəzər yetirək:

"*I am a child of the House of Commons. I was brought up in my father's house to believe in democracy*" (1). Nümunədən göründüyü kimi, V.Çörçillin nitqindəki koqnitiv metonimik modeldə *house* sözü iki dəfə təkrarlanır. Burada "*the House of Commons"* və *"father's house"* anlayışları mənaca bir-birinə yaxınlaşır. Qeyd etmək lazımdır ki, V.Çörçillin atası Lord Rəndolf Çörçill (Lord Randolph Henry Spencer-Churchill, 1849-1895) Böyük Britaniya parlamentində İcmalar palatasının (the House of Commons) üzvü olub və V.Çörçill "*I am a child of the House of Commons*" deyərək ailəsi haqqında məlumat verir. Bununla da nitq portreti danışanın tanınmasına və ona qarşı münasibətin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Nitq portretinin formalaşması nəticəsində siyasi xadim özgə, əlçatmaz şəxsiyyət kimi deyil, əksinə dost və yaxın adam kimi qavranılır. Deməli, onun barədə müsbət fikir formalaşır.

Bundan əlavə, ingilisdilli poetik diskurs nümunələrində nitq portretini təsvir etmək olar. Məsələn, XX əsr Amerika poeziyasının nümayəndəsi olan Lənqston Hyuz (Langston Hughes, 1901-1967) "The Negro Speaks of Rivers" adlanan şeirində Afro-Amerikalı olmağı ilə fəxr etdiyini ifadə edərək hər misranın əvvəlində "I" (mən) şəxs əvəzliyinin təkrarı ilə özünün nitq portretini təqdim edir:

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

"I've known rivers:

I've known rivers ancient as the world and older than the flow of human blood in human veins.

My soul has grown deep like the rivers.

I bathed in the Euphrates when dawns were young.

I built my hut near the Congo and it lulled me to sleep.

I looked upon the Nile and raised the pyramids above it.

I heard the singing of the Mississippi when Abe Lincoln went down to New Orleans, and I've seen its muddy bosom turn all golden in the sunset.

I've known rivers:

Ancient, dusky rivers.

My soul has grown deep like the rivers" (2).

Beləliklə, ingilis dilində olan diskurs nümunələrinin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, nitq portreti vasitəsilə məlumatı təqdim edən şəxs özünün daxili, intellektual, emosional dünyasını, xarakterinin səciyyəvi xüsusiyyətlərinin məcmusunu cəmiyyət üzvlərinə təqdim edir.

## Ədəbiyyat

1. https://www.americanrhetoric.com/speeches/winstonchurchillmastersofourfate.htm
2. https://www.poetryfoundation.org/poems/44428/the-negro-speaks-of-rivers

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 14-18
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 14-18
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Leyla Nəbiyeva**
Bakı Dövlət Universiteti
doktorant
leyla.turqay1115@mail.ru

# BÖYÜK TURAN LAYİHƏSİ: ƏBƏDİ DOSTLUQ VƏ ƏMƏKDAŞLIĞIN PARLAQ GƏLƏCƏYİ

***Açar sözlər:*** *əməkdaşlıq, davamlı inkişaf, mədəni mübadilə, diplomatik əlaqələr, iqtisadi artım, davamlı əməkdaşlıq, tərəfdaşlıq*

***Keywords:*** *cooperation, sustainable development, cultural exchange, diplomatic relations, economic growth, sustainable cooperation, partnership*

Son illərdə Böyük Turan layihəsinin konsepsiyası böyük diqqət qazanıb və Türkdilli dövlətlərin gələcək perspektivləri ilə bağlı müzakirələrə səbəb olub. Böyük Turan Layihəsi Türkdilli ölkələr arasında iqtisadi inteqrasiya, mədəni mübadilə və qarşılıqlı inkişafı təşviq edən əbədi dostluq və əməkdaşlıq münasibətlərinin gücləndirilməsini nəzərdə tutur.

Böyük Turan Layihəsi Türkdilli dövlətlərin firavan iqtisadi mərkəzə çevirmək potensialına malikdir. Bölgə zəngin təbii sərvətlərə, o cümlədən neft, qaz, faydalı qazıntılar və münbit torpaqlara malikdir. İqtisadi inteqrasiyanı təşviq etməklə üzv ölkələr enerji, kənd təsərrüfatı, nəqliyyat və texnologiya kimi strateji sənayeləri inkişaf etdirmək üçün öz resurslarını və təcrübələrini birləşdirə bilərlər. Bu əməkdaşlıq yanaşması xarici sərmayələri cəlb edəcək, regional ticarəti gücləndirəcək və iqtisadi artımı stimullaşdıracaq ki, bu da Türkdilli

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

dövlətlərin əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına və rifahın artmasına gətirib çıxaracaq.

Türk coğrafiyası daxilində güclü və dərin inteqrasiyaya nail olmaq üçün dövlətlər arasında möhkəm iqtisadi əlaqənin qurulması çox vacibdir. Bu, dövlətlərin bir-birinin bazarlarına məhdudiyyətsiz çıxışının təmin edilməsini nəzərdə tutur. Bundan əlavə, iqtisadi həqiqilik baxımından qarşılıqlı əlaqənin gücləndirilməsi vacibdir. Lakin hazırda iqtisadi sahədə inteqrasiyanın bu səviyyəsi aydın şəkildə özünü göstərmir.

Müstəqillik əldə etdikdən sonra türkdilli dövlətlər Türkiyənin türk dünyasının ən inkişaf etmiş dövləti olmasından, Qərb dünyasına yaxın olmasından, qlobal inteqrasiyanın yüksək səviyyədə olmasından istifadə edərək dünyaya açılmaq siyasətini həyata keçirmişlər.

Türk xalqları arasında ortaq mədəniyyət, dil, din və dəyərlərdən kənara çıxan sıx bir bağ var. Qədim dövrlərdən ticarət əlaqələrinin qurulması və çoxşaxəli əməkdaşlığın tarixi inkişafı bu yaxınlığa öz töhfəsini verib. Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistan türkdilli ölkələr olmaqla Orta Asiyadan Anadolu yarımadasına qədər strateji geosiyasi mövqelərə və zəngin resurslara malikdirlər. İqtisadi inkişafına, əsas makroiqtisadi və sosial göstəricilərinə görə fərqlənən bu ölkələr arasında iqtisadi əlaqələr 1991-ci ildə Orta Asiyanın türkdilli dövlətləri və Azərbaycan müstəqillik əldə etdikdən sonra daha da intensivləşib.

Hazırda bu ölkələr Türk Şurası çərçivəsində müxtəlif sahələrdə, xüsusilə siyasət, ticarət, iqtisadiyyat və mədəniyyət sahələrində uğurla əməkdaşlıq edir və bir-birini dəstəkləyir. Türk Şurası 2009-cu ildə Naxçıvanda keçirilən türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısında imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Ticarət əlaqələri,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

qarşılıqlı investisiyalar, regional meqalayihələr, tikinti-bərpa işlərində əməkdaşlıq Azərbaycanla digər türkdilli ölkələr arasında iqtisadi əlaqələrin əsas diqqət mərkəzində olan istiqamətlər sırasındadır. Bu əməkdaşlıqlar iştirakçı ölkələrin böyüməsinə və inkişafına töhfə verir və onlar arasında daha güclü əlaqələr yaradır (Bayramova, 2021).

Türk dünyası ilə regional layihələrdə enerji əməkdaşlığı xüsusi yer tutur. Bu perspektivdə Azərbaycan neft və qaz ixracatçısı, təbii enerji ehtiyatları ilə zəngin ölkə kimi çıxış edir və sərvətlərlə zəngin olan Mərkəzi Asiyanın türkdilli ölkələrinin təbii sərvətlərinin qərbə daşınmasında tranzit mövqedədir. Bu gün türkdilli ölkələr, xüsusilə Türkiyə və Azərbaycan birgə qlobal miqyasda böyük əhəmiyyət kəsb edən layihələr həyata keçirir, Avrasiyanın enerji xəritəsini yenidən cızırlar. 2005-ci ildə açılmış Ümummilli Lider Ulu Öndər Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri Azərbaycan və Türkiyənin beynəlxalq enerji dəhlizlərinə çıxışda və Avropanın enerji təhlükəsizliyində əhəmiyyətini artırır.

2014-cü ilin sentyabrında Bakıda "Şahdəniz-2" çərçivəsində hasil edilən qazın Xəzər dənizindən Avropaya nəqli üçün nəzərdə tutulmuş nəhəng qaz kəməri olan Cənub Qaz Dəhlizinin təməl daşı qoyuldu. Bu layihə karbohidrogen ehtiyatları ilə zəngin olan Mərkəzi Asiyanın türkdilli ölkələrinin gələcəkdə öz ehtiyatlarını Avropa bazarına çıxarması və bu ölkələrin qlobal enerji təhlükəsizliyinin təmin edilməsində pay sahibi olması üçün böyük rol oynayır. Azərbaycan bu inteqrasiyanın həyata keçirilməsində etibarlı enerji dəhlizi olmaqla türkdilli xalqların rifahına və iqtisadi inkişafına töhfə verməkdədir.

Türkdilli ölkələr təşkilatına üzv olan ölkələr həmçinin, zəngin mədəniyyət və adət-ənənələrə ev sahibliyi edir. "Böyük

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

Turan Layihəsi" region xalqları arasında mədəni mübadilə və əlaqələri gücləndirməyə çalışır. Bunun nəticəsidir ki, 1993-cü il iyulun 12-də Almatıda keçirilən görüşdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirləri TÜRKSOY-un (Türk Mədəniyyəti və İncəsənətinin Birgə İdarəsi) yaradılmasına dair saziş imzaladılar.

Ötən 30 ildə TÜRKSOY zəngin ümumtürk mədəni irsinin təbliği və qorunub saxlanmasına yönəlmiş mühüm nailiyyətlər əldə etmiş və çoxsaylı layihələr həyata keçirmişdir. Onların səyləri türkdilli xalqlar, ölkələr və regionlar arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynamışdır. TÜRKSOY Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında da mühüm rol oynayır (İsmayılov, 2001: 93):

- 2009-cu ildə TÜRKSOY-un təşəbbüsü ilə həyata keçirilən beynəlxalq layihə çərçivəsində tanınmış Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun bəstələdiyi "Koroğlu" operası uğurla tamaşaya qoyulub. Layihədə Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, həm də Başqırdıstan və Tatarıstan Muxtar Respublikalarının təmsilçiləri iştirak edirdilər.
- 2018-ci il TÜRKSOY tərəfindən böyük Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 100 illiyi şərəfinə "Qara Qarayev xatirə ili" elan edilib. Xatirə ili çərçivəsində Ankarada və Bursada TÜRKSOY tərəfindən mərasim və konsertlər keçirilib.

İrəliləyəcək yol iqtisadi əlaqələrin dərinləşdirilməsini, mədəni əlaqələrin möhkəmləndirilməsini, dialoq və əməkdaşlıq vasitəsilə etimadın yaradılmasını tələb edir. Hökumətlərin, vətəndaş cəmiyyəti təşkilatlarının və ayrı-ayrı şəxslərin Böyük Turan vizyonunun inkişafında rolu var. Bundan əlavə, qonşu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

regionlar və beynəlxalq təşkilatlar kimi xarici aktorlarla dialoqa girmək anlaşmanı gücləndirə, dəstək toplaya və qarşılıqlı faydalı tərəfdaşlıq imkanları yarada bilər.

Böyük Turan Layihəsi Türkdilli dövlətlərinin gələcəyi ilə bağlı cəlbedici baxış təqdim edir. İnkişaf etmiş iqtisadi inteqrasiya, mədəni mübadilə və regional əməkdaşlıq vasitəsilə layihə regionun geniş resurslarını üzə çıxarmaq, davamlı inkişafı təşviq etmək və əhali üçün daha yaxşı gələcək yaratmaq potensialına malikdir.

## Ədəbiyyat

1. Bayramova, A. Azərbaycanın Türk dünyasının iqtisadiyyatında rolu. 10.09.2021. https://ereforms.gov.az/az/media/xeberler/amine-bayramova-azerbaycanin-turk-dunyasinin-iqtisadiyyatinda-rolu-274
2. İsmayılov, İ. (2001). Türk dünyası XX əsrin 90-cı illərində. Bakı: Zaman, 93 s.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 19-21
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 19-21
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Şəhanə Əsgərova**
Azərbaycan Dillər Universiteti
doktorant
shahanaasgarova@gmail.com

# FRANSIZ DİLİNDƏ ÜMUMİŞLƏK METAFORALAR DİLİN LÜĞƏT TƏRKİBİNİ ZƏNGİNLƏŞDİRƏN AMİLLƏRDƏN BİRİ KİMİ

***Açar sözlər:*** *lüğət, çoxmənalılıq, metafora, leksik metaforalar, üslubi metaforalar, oxşarlıq*
***Keywords:*** *vocabulary, polysemy, metaphor, lexical metaphors, stylistic metaphors, similarity*

Azərbaycan dilində olduğu kimi, fransız dilində də sözlər oxşar əlamət və funksiyalara görə bir neçə anlayışı adlandıra bilir. Bir sözə müxtəlif mənalar yüklənərək fərqli əşya və hadisələri adlandırması metaforlaşma prosesi nəticəsində mümkün olur. Sözlərin öz ilkin, həqiqi mənalarından uzaqlaşaraq, əlavə yəni məcazi məna kəsb edərək başqa əşyalar üzərinə köçürülməsi metafora adlanır. Köçürmə əşya və hadisələr arasındakı müəyyən oxşarlıq əsasında mümkün olur. Ümumişlək sözlər çoxmənalılığa malik olduğundan metaforlaşmaya daha çox meyillidirlər. Bu yolla yaranan metaforalar nominativ xarakter daşıyır və dilin lüğət tərkibində sabitləşir. Belə metaforalar dil metaforaları yaxud leksik metaforalar adlanır. Daha çox metaforlaşmaya meyl edən sözlər, insan bədən üzvü və orqan adlarıdır. La tête (baş), le bras (qol), le nez (burun), le pied (ayaq), coeur (ürək), l'oeil (göz) və sözlərin köməyi ilə çoxlu metaforik ifadələr yaranmışdır.

*Bras – qol, le bras d'un homme – insanın qolu*
*Un des bras du fleuve – çayın qollarından biri*

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

*Avoir le bras long – (qolu uzun olmaq) - əli hər yerə çatmaq*

*Le bras droit de qqn – kiminsə sağ əli olmaq* (Robert, 1993: 146)

*Œil göz, yeux gözlər – insanın, heyvanın gözü*

*Lever les yeux – (gözlərini qaldırmaq) – baxmaq*

*Fermer les yeux – gözlərini bağlamaq, bu ifadə müxtəlif mənalarda işlənir*

*Ne pas fermer l'œil de la nuit – gecə gözünün yummamaq yəni yatmamaq*

*Ouvrir les yeux – gözlərini açmaq yəni daha diqqətli olmaq*

*Coup d'œil – nəzər yetirmə, nəzər salma, ani baxış* (Dictionnaire Le Robert, 1993: 865)

*Cœur – ürək*

*Avoir bon cœur , avoir du coeur– yaxşı ürəyi olamq yəni xeyirxah, əliaçıq olmaq*

*Sans cœur – ürəksiz yəni qəddar*

*Avoir le cœur sur la main – səxavətli olmaq*

*Au cœur - mərkəzində*

*Au cœur de l'hiver – qışın ortasında* (Dictionnaire Le Rober, 1993: 229)

*Le pied – ayaq , insanın, heyvanın ayaq üstə durmasını təmin edən bədən üzvüdür. Ayaq* sözü həm funksiya etibarilə, həm də ümumi oxşarlıq üzrə başqa əşyalara köçrülür.

*Le pied d'un lit – çarpayının ayağı, funksiya etibarilə köçürmə.*

*Le pied d'une colline (Lopatnikova, Movchovitch, 2001: 31) – təpənin ətəyi*

*Avoir un pied dans la tombe – bir ayağı qəbrdə olmaq – yəni çox qoca olmaq, qocalıb əldən düşmək (Robert, 1993: 945).*

Metaforanın yaranması üçün məhsuldar hesab olunan mənbələrdən biri də heyvan və quş adları ilə düzələn

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

metaforalardır. Bu zaman heyvan və quşa aid xarakterik ya mənfi, ya da müsbət xüsusiyyət insan üzərinə köçürülür. Belə metaforalar zoomorfizmlər adlanır. Zoomorfizmlərin adlandırma xüsusiyyəti olsa da, onlarda nominativlik zəifdir. Bu cür metaforalar heyvan və quş adlarından istifadə edərək insanın keyfiyyətini qiymətləndirmə funksiyası daşıyır. Zoomorfizlərdə obrazlılıq daha güclü olur lakin onlar hər kəs tərəfindən başa düşüləndir. Bu yolla yaranan metaforaların üslubi imkanaları daha çoxdur. Bədii əsərlərdə əsərin təsir gücünü artıran, obrazlılıq yaradan belə metaforalar üslubi metaforalar adlanır. Üslubi metaforalar yazıçı təxəyüllünün məhsuludur və dilin lüğət tərkibi ilə sabitləşmir.

Tais - toi serpent ! (Schmitt, 2021: 296) – Sus ilan. Yazıçı obrazın mənfi xarakterini ifadə etmək üçün onu ilana bənzətmişdir

Hər hansı situasiya ilə bağlı, mətnin xarakterindən, konteksdən asılı olaraq yaranan metaforalar isə fərdi – üslubi metaforalar adlanır.

Deməli, ümumişlək metaforalar dedikdə məcazlaşmaya asanlıqla meyl edən leksik qruplar arasında yaranan metaforalar nəzərdə tutulur. Obrazlığını itirmiş bu cür metaforalar hər kəs tərəfindən başa düşülür, geniş istifadə olunur, eyni zamanda dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır.

## Ədəbiyyat

1. Dictionnaire Le Robert. (1993). Micro Paris.
2. Lopatnikova, N.N., Movchovitch, N.A. (2001). Lexicologie du français moderne. Moskva.
3. Schmitt, E. (2021). Paradis Perdus Albin Michel.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Etibar Əhmədov**
Bakı Dövlət Universiteti
doktorant
etibar.ahmedov23@mail.ru

# MÜBAHİSƏLƏRİN SÜLH YOLU İLƏ HƏLLİ SAHƏSİNDƏ REGİONAL QURUMLARIN BMT İLƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞI

***Açar sözlər:*** *BMT Nizamnaməsi, Təhlükəsizlik Şurası, regional orqanlar, regional təşkilatlar, mübahisə, prioritet, veto hüququ*

***Keywords:*** *UN Charter, Security Council, regional authorities, regional organizations, dispute, priority, veto right*

Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması BMT-nin yaranmasından bəri onun əsas məqsədi olmuşdur və bu günə qədər də olaraq qalır. BMT Nizamnaməsinin 24-cü maddəsinə əsasən bu fəaliyyət istiqamətində əsas məsuliyyət BMT Təhlükəsizlik Şurasının üzərinə düşür (1). BMT ilə yanaşı, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üzrə fəaliyyətlər regional orqanlar və sazişlər tərəfindən də həyata keçirilir. Bununla birgə, Afrika Birliyi Təşkilatı (ABT), Ərəb Dövlətləri Liqası (ƏDL) və Amerika Dövlətləri Təşkilatı (ADT) kimi BMT Nizamnaməsinin VIII fəslinə uyğun olaraq təsis edilmiş regional təşkilatların münaqişələrin sülh yolu ilə həlli üçün onlara verilən ümidləri doğrultmadığını qeyd etmək olar. Məşhur amerikalı hüquqşünas alim A.Henrikson qeyd edir ki, bu təşkilatlar regional mübahisələrin həlli üçün nə “birinci instansiya Forumu”, nə də  heç olmasa “amortizator” kimi də çıxış etməyiblər. Bunun səbəbi, onun fikrincə, bir tərəfdən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

regional təşkilatların institusional zəifliyi, digər tərəfdən isə, Təhlükəsizlik Şurasının sülhü qorumaq üçün uğursuzluqlarından irəli gələn siyasi gücünün və nüfuzunun kifayət qədər yüksək olmaması regional təşkilatların təsirinin dolayı yolla azalmasına səbəb olur. Hazırda BMT ilə regional təşkilatlar arasında sinergik münasibətlərə və əməkdaşlığın gücləndirilməsinə böyük ehtiyac var. BMT ilə regional mexanizmlər arasında sülhün qorunması üzrə birgə fəaliyyətin nəticələri, A.Henriksonun fikrincə, regional orqanların və sazişlərin "birgə fəaliyyətlərin ümumdünya inteqrativ sisteminin qlobal zəncirinin əsas halqaları" qismində çıxış edə bilib-bilməmələri sualına aydınlıq gətirə bilər (Henrikson, 1996: 46).

Alan Henrikson başqa elmi əsərində qeyd edir ki, BMT-nin və ya regional təşkilatların primatı haqqında konkret beynəlxalq hüquqi biliklərin olmaması bu beynəlxalq qurumlar arasında qarşılıqlı əməkdaşlıq üçün əsas maneədir. Sonra o yazır ki, primat sualı üç aspektdə nəzərdə tutula bilər: 1. müraciətin ilkin olması mənasında prioritet, başqa sözlə, qurumlardan hansının məntiqi baxımdan və ya müəyyən bir beynəlxalq hüquq normasının müddəasına əsasən ardıcıllıqla birinci olması; 2. yüksək səviyyədə legitimlik təmin edəcək siyasi, hüquqi və mənəvi status və nüfuz mənasında prioritet; 3. adi nisbi üstünlük mənasında prioritet, daha aydın desək, de-fakto böyük təsir və səlahiyyətlərə sahib olmaq və, beləliklə, mübahisələrin həlli üçün daha böyük imkanlar təklif etmək (Henrikson, 1995: 124).

Primat məsələsi, fikrimizcə, həqiqətən çoxşaxəlidir. Buna görə, bu məsələnin yuxarıda göstərilən aspektlərinə ən obyektiv nöqteyi-nəzərini bildirməyə çalışacağıq:

1. Ardıcıllıq mənasında, regional orqanlara və sazişlərə müraciət əvvəl baş verir və mübahisənin BMT Təhlükəsizlik

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

Şurasının baxılmasına verilməsini zamanca qabaqlayır, buna sübut olaraq BMT Nizamnaməsinin 33.1-ci maddəsini gətirmək olar.

Bu maddəyə əsasən, beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yaradan mübahisə yarandıqda, ilk növbədə, bu maddədə sadalanan sülh vasitələrinə, o cümlədən regional orqanlara və sazişlərə müraciət etmək nəzərdə tutulur. Əgər bu cür dinc vasitələrlə mübahisəni həll etmək mümkün olmazsa, BMT Nizamnaməsinin 37.1-ci maddəsinə əsasən tərəflər mübahisəni BMT Təhlükəsizlik Şurasına təqdim etməlidirlər. Bəzi hallarda, BMT Nizamnaməsinin 33.2-ci maddəsinə əsasən, BMT Təhlükəsizlik Şurası hətta özü mübahisə tərəflərindən 33.1-ci maddədə sadalanan dinc vasitələrə müraciət etmələrini də tələb edə bilər (1).

2. Siyasi və hüquqi status və nüfuz mənasında üstünlük, əlbəttə ki, Təhlükəsizlik Şurasına və BMT-nin digər orqanlarına məxsusdur. Bildiyimiz kimi, beynəlxalq doktrinada adətən siyasi və hüquqi xarakterli mübahisələr fərqləndirilir. Siyasi xarakterli mübahisələrə nisbətdə BMT Təhlükəsizlik Şurası, hüquqi xarakterli mübahisələrə nisbətdə isə BMT Beynəlxalq Məhkəməsi ən yüksək nüfuza malikdirlər. Mənəvi statusa və nüfuza gəldikdə, məsələnin bu hissəsinə dair mövqeyimiz mübahisəlidir, çünki bir tərəfdən regional orqanlar və sazişlər müəyyən bir bölgəyə xas olan və müzakirə olunan mübahisə üçün vacib olan mənəvi və etik normaları çox dərindən və tam nəzərə almaq imkanına malikdir, digər tərəfdən isə müəyyən bir bölgəyə xas olan mənəvi və etik normalar birbaşa və ya dolayısı BMT-nin əsas məqsəd və prinsiplərinə zidd ola bilər. Buna görə, fikrimizcə, ən yüksək mənəvi statusa və nüfuza BMT strukturları malikdirlər.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

3. Nisbi üstünlük mənasında regional orqanlar və sazişlər BMT Təhlükəsizlik Şurası ilə müqayisədə bir sıra üstünlüklərə malikdirlər. BMT Təhlükəsizlik Şurasının əsas mənfi xüsusiyyəti veto hüququndadır, buna görə də BMT çərçivəsində bəzi yüksək əhəmiyyətli beynəlxalq münaqişələrin həlli üzrə lazımi tədbirlərin görülməsi mümkün olmamışdır. Uruqvaylı professor və BMT Beynəlxalq Məhkəməsinin keçmiş sədri (1976-1979) E.Himenezin qeyd etdiyi kimi, beş daimi üzvünə veto hüququnun verilməsi BMT Təhlükəsizlik Şurasının səlahiyyətlərinin əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasıdır, çünki daimi üzvünə qarşı sanksiya tətbiq etmək cəhdi avtomatik olaraq həmin üzv tərəfindən rədd ediləcəkdir.

Həmçinin praktikada da bu mümkün deyil, çünki bir super dövlətə qarşı məcburi tədbirlərin tətbiqi sülhü qorumaq əvəzinə, üçüncü dünya müharibəsinin başlanmasına gətirib çıxara bilər. E.Himenez daha sonra yazır ki, cəzasızlıq sisteminin geniş miqyas almasının səbəbi daimi üzvlər tərəfindən yalnız öz müdafiələri üçün deyil, həm də müttəfiqlərini qorumaq üçün də veto hüququndan istifadə edə bilmələrindədir (Jimenez de Arechaga, 1983: 346). BMT Təhlükəsizlik Şurasından fərqli olaraq regional təşkilatlar çərçivəsində müəyyən regionun bir sıra ölkələri tərəfindən mübahisənin tez bir zamanda həlli üçün mübahisə tərəflərinə siyasi təsir və təzyiq göstərə bilməsi regional təşkilatların üstün cəhətlərindən biridir. Buna baxmayaraq, praktikada regional qurumların və sazişlərin mübahisələrin sülh yolu ilə həllinə dair fəaliyyətini kifayət qədər səmərəli olmadığını qeyd etmək olar və, beləliklə, Təhlükəsizlik Şurası, qeyri-kamilliyinə baxmayaraq, hələ də həm de-yure, həm də de-fakto beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ən nüfuzlu beynəlxalq qurum olaraq qalır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

## Ədəbiyyat

1. Ustav, OON. (polnyi tekst). URL:https://www.un.org/ru/about-us/un-charter/full-text (müraciət tarixi: 25.06.2023)
2. Henrikson, Alan K. (1996). "The United Nations and Regional Organizations: 'King Links' of a "Global.chain". Duke Journal of Comparative & International Law, 7(35), p.35-70.
3. Henrikson, A. (1995). The Growth of Regional Organizations and the Role of the United Nations. Regionalism in World Politics: Regional Organizations and International Order – ed. by L.Fawcett, A.Hurrell, 342 p. New York: Oxford University Press, p.122-168
4. Jimenez de Arechaga, E. (1983). United Nations Security Council. Encyclopedia of Public International Law. Volume 5: International Organizations in General Universal International Organizations and Cooperation. Amsterdam: North-Holland Publishing Company, p.345-349.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Zumrud Yusifova**
Institute of Geography
Azerbaijan National Academy of Sciences
Ph.D student
zumrudyusifova_y89@yahoo.com

# THE THEORETICAL AND PRACTICAL IMPORTANCE OF THE STUDYING KARABAKH TOPONYMS

***Keywords:*** *Karabakh toponyms, Shusha, geografical names, economic region, practical importance*
***Açar sözlər:*** *Qarabağ toponimləri, Şuşa, coğrafi adlar, iqtisadi rayon, praktik əhəmiyyət*

The Azerbaijani state is taking a number of measures in order to ensure sustainable and large-scale development of the regions. Especially after the 44-day Civil War, ensuring the development of liberated territories has become the main task of our state. One of the steps taken in this direction is the Decree of the President of the Republic of Azerbaijan on the “New division of economic regions in the Republic of Azerbaijan” adopted in 2021. According to the decree, Jabrayil, Kalbajar, Gubadly, Lachin and Zangilan are included in Eastern Zangezur. Khojaly, Khojavand, Shusha, and Tarter regions are included in Karabakh economic region. For developing and creating innovations in this region, many government agencies carry out their duties. Another step in this direction is the researching toponyms of this region (1).

As is known, geographical names are a national treasure that reflects the history of our nation. The study of this

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

geographical names give us complete information about the history, traditions, and ethnicity of our nation. Toponymy studies in this region play a vital role in conveying the historical-geographical names of our ancient land to future generations. As a result of research conducted in this profile, we are able to learn the origin of the name of the ancient Shusha, the pearl of Karabakh. The word Shusha belongs to the Turkish language. Shusha was freed from enemy slavery after twenty-eight years. Shusha is an ancient and historical city of Azerbaijan. Over the years, Shusha has been studied and researched by historians. There are many cultural figures and representatives of art that this city has produced. However, the development and study of this city has not been possible since it has been under enemy occupation for years. Two years have passed since Shusha's freedom. In a short period of time, Shusha has progressed towards development. Currently, the study of this city and its toponyms are of great importance. As Shusha is an ancient territory of Azerbaijan, it is necessary to convey its history to future generations. To show that Shusha is the ancient land of Azerbaijan, it is of great importance to study the toponyms related to this area and look at the historical development of this city.

During the study, it was found out that, the word Shusha has several meanings. The first meaning of the word Shusha is related to the area where it is located. In this regard, Shusha means "altitude, swelling, height". According to some narrations, Shusha's name is related to its clean air. When analyzing the Persian language, it is also possible that the word Shusha originated from the infinitive "Shah ol". Thus, for centuries, the Persian kings, the Russian Empire, as well as the Armenians fought for the possession of Shusha. This was also

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

connected with the fact that who owns Shusha, he was the king of Karabakh. This was proven during the Second Patriotic War. After our national army liberated Shusha, the war ended with the victory of the Azerbaijan. But over time, this meaning of the word "Shusha" was veiled and came to our time as the word "Glass".

As we know, in the four seasons of the year, the nature of Shusha is mysterious and enjoyable. So we can use this research for exploring the toponyms of the entire Karabakh region. In addition, each of the Karabakh toponyms can be saved in the form of an encyclopedia and this is the best means of passing down history to future generations. In short, theoretical and practical importance of learning these toponyms is that, we can preserve history of the geographical names of Karabakh.

## References

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 07 iyul 2021.
2. Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti. (2007). Birinci cild. Bakı: Şərq-Qərb.
3. Azərbaycan Toponimlərinin Ensiklopedik Lüğəti. (2007). İkinci cild. Bakı: Şərq-Qərb.
4. Qacar, Ç. (2019). Köhnə Şuşa. Bakı: Şərq-Qərb, 340 s.
5. Qarabağlı, A. (2008). Qarabağ, onun qədim tayfaları və toponimləri. Bakı: Mütərcim, 475 s.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 30-31
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 30-31
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Aytən Mütəllimzadə**
Bakı Dövlət Universiteti
doktorant
aytanmutallimzada@bsu.edu.az

# SOSİAL MEDİADA "İDEAL" OBRAZLARIN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏYƏ TƏSİRİ

***Açar sözlər:*** *sosial media, sosial şəbəkə, bloqer, ideal mən, özünüqiymətləndirmə*
***Keywords:*** *social media, social network, blogger, ideal self, self-esteem*

Müasir dövrün insanları bu günlərdə sosial mediaya o qədər çox əhəmiyyət verirlər ki, artıq sosial media onların prioritetinə çevrilmişdir. Bir çox insanlar sosial mediada özlərini başqalarına əslində olmadıqları biri kimi göstərməyə çalışırlar. Digər insanların, xüsusilə də sosial media fenomenləri və bloqerlərin Photoshop kimi şəkil redaktə edən proqramlardan istifadə edərək, özlərini qüsursuz təqdim etməkləri, onları izləyən gənclərə mənfi təsir etmiş olur. İzləyicilər görünüşlərini fiziki olaraq dəyişdirmək və özlərini sosial mediada gördükləri hər növbəti insanla müqayisə etmək ehtiyacını hiss edə bilərlər. Qadın və moda jurnallarında təqdim olunan incə modellərin çoxdan məlumdur ki, bir çox gənc qadının özünüqiymətləndirməsini sarsıdır. Sosial media artıq müasir dövrümüzdə həmin jurnalların və reklamların yerini almışdır. Aparılan 1500 nəfərlik tədqiqatda respondentlərin 60%-nin sosial şəbəkələrə baxanda özlərini qeyri-kafi hiss etdiyi, 18-34 yaşlarında olan şəxslərin isə 50%-nin özlərini cəlbedici hesab etmədiyi müəyyən edilmişdir. 2016-cı ildə aparılan tədqiqat işinində başqalarının

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

"ideal" həyatlarına baxmağın insanın özünüqiymətləndirməsini aşağı saldığı müəyyən edilmisdir (1). Belə ki, insan öz mövcud vəziyyətini başqalarının ən xoşbəxt anlarını göstərən yazıları ilə müqayisə edir. Sosial media platformalarında insanların ancaq virtual tərəfini görmək mümkündür. Bu o deməkdir ki, virtual aləmdə istifadəçilərin yalnız göstərmək istədikləri tərəfi görmək olur.

## Ədəbiyyat

1. Braun D. Kak sotsseti vliyayut na nashe nastroyeniye, son, psikhicheskoye zdorov'ye i otnosheniya. URL:https://www.bbc.com/ukrainian/vert-fut-russian-42694015.amp

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 32-35
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 32-35
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Nigar Ağayeva**
Azərbaycan Dillər Universiteti
dissertant
nigar.aa@mail.ru

# ARTUR KLARKIN YARADICILIĞINDA UTOPİYA VƏ DİSTOPİYA JANRLARININ SİNTEZİ

***Açar sözlər:*** *Utopiya, distopiya, fantastika, cəmiyyət, texnologiya*
***Keywords:*** *Utopia, dystopia, fiction, society, technology*

XIX əsrdən etibarən yazıçılar müxtəlif yollarla fərdlər üçün böyük azadlıq təklif edir, rahat həyat və xoşbəxtliyi və məmnunluğu təşviq edən maraqlı yollar irəli sürürdülər. Dünyanın sürətlə dəyişməsi bəşər övladının potensialının genişlənməsiylə nəticələndi və bunun özü də potensial olaraq utopik bir vəziyyətdir. Lakin fantast- yazıçının utopizmin təbiətini dəyişmək istəyi utopiya və distopiya ilə bitmir. Ənənəvi utopiyada insanın yer üzündə yenidən təşkil oluna biləcəyi yolları təsəvvür etməkdən ibarətdir. Onun mexanizmləri qanunvericilik, təhsil və ya qanuni dəyişikliklər, bəzən texnologiya və ya ətraf mühitin idarə edilməsindəki dəyişikliklərdir. Ənənəvi utopiya insanı olduğu kimi qəbul edir, qanunvericiliklə və təhsillə insanı utopiyaya uyğunlaşdırmağa ümid edir. Utopiyanın müasir forması daha mükəmməl cəmiyyəti təkamül və texnologiyanın nəticəsi hesab edir.

A.Klarkın 1958-ci ildə yazdığı "Uzaq Yerin nəğmələri" (The Songs of Distant Earth) romanı uzaq gələcəkdə utopik bir insan koloniyasından danışır. Bu koloniyayada artıq Günəş yeni bir ulduza çevrilib, məhv edilmiş Yerə isə ziyarətə gəlirlər. Yazıçı

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

əsərdə utopik və ateist ideyalardan bəhs edir, apokalipsisin baş verməsindən söz açır, amma eyni zamanda da ulduzlararası səyahətləri və yerdənkənar həyatı təsvir edir.

Bütöv və utopik həyat sürmək uğrunda mübarizə fərdin istəkləri ilə tərs ola bilər. Qreqori Kleysə görə "bir şəxs üçün terrorçu digərinin azadlığı uğrunda mübarizə aparan olduğu kimi, bir insanın distopiyası da başqasının utopiyasıdır" (Claeys, 2010: 108). Layman Tauer Sarcent isə utopiya və distopiya arasındakı paralelləri şərh edərkən yazır ki, "XX əsrdə ortaya çıxan bir çox utopiyalar distopiyaya çevrilmiş, əksəriyyəti gücün həddindən artıq mərkəzləşməsinə cəmiyyətdə baş verən fəlakətlərin əsas mənbəyi kimi baxır" (Sargent, 1982: 565). Utopiya və distopiyanın bu xüsusiyyəti, cəmiyyəti nizamlamaq üçün tətbiq edilən güc sistemin zəruriliyinin qaçılmaz nəticəsidir. Bu ilk baxışdan bir qrup insanın maraqlarının qorunması kimi görünə bilər, lakin həmçinin, bu insanların hüquqlarının və şəxsi seçimlərinin yoxluğunun da göstəricisidir.

Antik dövrdən müasir dövrümüzə kimi nəzər saldıqda, hamının rifahı üçün ahəngdar bir ictimai və siyasi nizam təsəvvür etmək istəyi insana aşılanmış, bu ideya sosial və mədəni sərhədləri aşmışdır. Ancaq bu sistemə daha yaxından nəzər salanda mükəmməllik və azadlıq sadəcə görüntü, əslində totalitar bir dövlət və onun tərəfindən idarə olunan məzlum qurumlar və nizam-intizamlı bir cəmiyyət təsvirini görürük. Bir utopiya, yazıçının mükəmməl bir cəmiyyət olduğuna inandığı kimi, onun evtopiya (yaxşı yer) təklif etdiyi bir mənzərədir. Belə bir cəmiyyət yaratmaq ideyası da mümkün deyil, çünki bu kimi bir şey yoxdur. U-topia (heç bir yer) təklif etdiyi kimi mükəmməl bir cəmiyyət, hətta mövcud olsaydı belə, inşa edilə bilməzdi, çünki bu, yüksək səviyyəli mükəmməl insanların olmasını tələb edirdi. Buna görə də, Frank Manuel

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

"Qərb dünyasında utopik düşüncə" (Utopian Thought in the Western World) əsərində yazır ki, "etiqadlı (əqidəli) utopiyaçı ideal bir dövlət qurmağa çalışdıqda, münaqişə yaranacaq, çünki evtopiyaya (yaxşı yerə - N.A.) nail ola bilməyərək, buna nail olmaq üçün güc tətbiq edəcəkdir. İnsanlar utopiyanın arzu olunmasınıı şübhə altına aldıqları üçün və ya da mükəmməl, qüsursuz insanlar arasında uyğunsuzluq olduğuna görə ona qüvvə lazım olacaqdır" (Manuel, 1979: 569).

Uyğunluq yaratmağın sonuna çatmaq, bütün insanlar üzərində müəyyən normalar tətbiq etmək üçün qanunlardan istifadə edilir və bu fakt utopiyaların humanitar ideallarının sadəcə bir görünüş olduğunu göstərir. Buna görə, utopik sistemlər fərdin azadlığını pozmaqla fəaliyyət göstərirlər. Böyük rus mütəfəkkiri Nikolay Berdyayev haqlı olaraq iddia edir ki, "hərtərəfli zülm, bütün azadlıqların və şəxsiyyətin dəyərinin rədd edilməsinin prototipidir". Eynilə, T.Mor, T.Kampanella, E.Kabe və başqaları fərdi azadlığı təmin edə bilmirlər "və bu mənada" utopiya həmişə totalitardır, totalitarizm isə dünyamızda həmişə utopikdir" (Berdyaev, 1987: 90).

Mişel Fuko isə "Estetika, metod və epistemologiya" (Aesthetics, Method, and Epistemology) esselər toplusunda utopiyaları "cəmiyyətin həqiqi məkanı ilə birbaşa və ya tərs bənzətmənin ümumi əlaqəsini qoruyan yerləşdirmə" kimi təyin edir. Bunlar cəmiyyətin kamilləşmiş forması və ya cəmiyyətin tərs üzüdür, lakin hər halda bu utopiyalar əsaslı və mahiyyətcə qeyri-real olan boşluqlardır" (Foucault, 1994: 178). Bu mənada M.Fuko tərifi daha çox O.Hakslinin utopiya ənənəsinə uyğundur. Onun tərifinə görə, utopiya əldə edilə bilməz və bu mənada yalnız bələdçi kimi istifadə edilə bilər. Buna görə də kamil cəmiyyətin siması M.Fuko yanaşması baxımından problemlidir, çünki utopiyalar cəmiyyətin necə fəaliyyət göstərməsi qaydalarını və bu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

baxımdan həm qurumları, həm də dövlət hakimiyyətini qorumaq üçün hansı metodlardan istifadəni müəyyənləşdirir. İdealın utopik məqsədi yaxşıdır, lakin, bu idealın əldə edilməsində istifadə olunan mexanizmlər problemlidir.

## Ədəbiyyat

1. Claeys, G. (2010). The Origins of Dystopia: Wells, Huxley and Orwell. The Cambridge Companion to Utopian Literature. Cambridge: Cambridge UP, p.107-135.
2. Sargent, L.T. (1982). "Authority & Utopia: Utopianism in Political Thought". Polity vol. 14.4, p.565-584.
3. Manuel, F.E., Manuel, F.P. (1979). Utopian Thought in the Western World. Belknap Press: An Imprint of Harvard University Press, 912 p.
4. Berdyaev, N. (1987). The New Middle Ages: The Russian Revolution, Democracy, Socialism, Theocracy. Trans. Prodromos P.Antoniadis. P.Pournaras, 103 p.
5. Foucault, M. (1994). Aesthetics, Method, and Epistemology. Ed. Paul Rabinow. New York: The New York, 340 p.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 36-42
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 36-42
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Tamerlan Qurban**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
Məhkəmə Ekspertizası Mərkəzi
dissertant
tamerqurban@mail.ru
UOT:40.81.71;40.85.91

# EKSTREMİST FƏALİYYƏTİN CİNAYƏT-HÜQUQİ ƏSASLARI

***Açar sözləri:*** *ektstremizmlə bağlı cinayətlər, ekstremist fəaliyyətin istintaqı, kriminastik xüsusiyyətləri, cinayət-hüquqi prosessual əsasları*

***Keywords:*** *crimes related to extremism, investigation of extremist activity, criminological features, and procedural bases of criminal law*

Ekstremist fəaliyyətin istintaqının elmi nəzəri əsaslarının cinayət-hüquqi və kriminalist aspektlərinin sistemli və hərtərəfli araşdırmasının zamanın tələbidir. Bu cinayətlərin istintaqının elmi-nəzəri əsaslarının təşkilati-metodiki və taktiki-prosessual xüsusiyyətlərinin araşdırılmasının tədqiqat obyektinə çevrilməsi prioritet elmi istiqamətlərinin əsas elmi-tədqiqatlarının mühüm problemlərinin predmeti olaraq öyrənilməsi zəruri və labüddür.

Tədqiqat işi Azərbaycan Respublikasının "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun 11-ci maddəsinin dördüncü hissəsində Dövlət Reyestrinə daxil olan məhkəmə ekspertizası tədqiqat metodları ilə təhlil olunmuşdu (Möhsünov, 2003: 445-495; Səməndərov, 2016: 135-177).

Ekstremist fəaliyyətlə bağlı cinayətlərin təşkilati-metodiki, taktiki-prosessual əsaslarının kriminalistik xarakteristikası,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

strukturu və əsas elementləri, mahiyyəti və digər məsələlərin elmi-nəzəri əsasları təhlil edilmişdi İstintaqının mövcudluğu və törədilməsi, açılması, dəlillərin toplanma, araşdırılması, qiymətləndirilməsi, həmçinin məhkəmə-ballistik, məhkəmə-trasoloji ekspertizası və məhkəmə fəaliyyəti haqqında problemlər araşdırılmışdır (Əliyev, 2010: 392-396).

Ekstremistlə bağlı cinayətlərin istintaqının təşkilati-metodiki, taktiki-prosessual əsaslarının kriminalistik xarakteristikası, onun strukturu, əsas elementləri, mahiyyəti və s. məsələlərin elmi-nəzəri xüsusiyyətləri təhlil edilmişdi (Möhsünov, Kərimov, Hüseynov, 2016: 360-442-443).

Ekstramızın yeni forma və növlərin, kriminal əməlləri törədən şəxslərin kriminalistik xüsusiyyətləri kompleks olaraq sistemli tədqiq edilmiş, ictimai təhlükəliliyi, cinayət məsuliyyətini müəyyən edən qanunvericiliyin hüquq əsasları araşdırılmışdı (Əliyev, 2010: 392-396).

Ekstremist xarakterli cinayətlərin istintaqında xüsusi biliklərdən istifadə edilmə imkanları, formaları, növləri nəzərə almaqla məhkəmə ekspertiziyaların icraatı qaydası, tərəflərin hüquqi və vəzifələri, rəyin tərtibi qaydası və digər əsas müddəaları prosessual qanunvericiliyi əhatəli şəkildə öyrənilmişdi (Yablokov, 2000: 23; Xəlilov, 2007: 71-76).

Kompüter sistemlərində olan informasiyanın tədqiqində istintaq subyekti tərəfindən ekspert qarşısında qoyulan suallara, müvafiq məsələlərə diqqət yetirilməsi xüsusi əhəmiyyət kəsb edir (Yermolovich, 2001: 40-41). Bu halda internet şəbəkəsinin informasiya-komunifikasiya texnologiyalarından istifadə etməklə ekstremist birliyin üzvləri tərəfindən törədilən cinayətlərin istintaqına aid kompüter-texniki ekspertiza çərçivəsində həll edilən və formula edilə bilən uyğun sualların kriminalistik çəhətləri hərtərəfli öyrənilmişdi. Kompüter şəbəkələrində istifadə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

etməklə həyata keçirilən ekstremist fəaliyyətin açılması və istintaq prosesi üçün kriminalistik əhəmiyyət kəsb edən məlumatların alınması, qiymətləndirməsi, məhkəmə ekspertiziyaların təşkili və taktiki-prosessual aspektləri tədqiq edilmişdi (Averyanova, 2008: 147; Səməndərov, 2016: 135-177).

Ekstremist motivlərlə törədilən cinayətlərin istintaqında şəxsin hüquqlarının maraqları əleyhinə təşkil edilmiş ekspertisiyaların kriminalistik xüsusiyyətləri formula edilmişdi.

Ekstremist fəaliyyətlə bağlı cinayətlərin istintaqında məhkəmə ekspertiziyaların təyin olunması və əsas növləri sistemləşdirilərək əhatəli şəkildə öyrənilmiş, məhkəmə ekspertizasiyası rəylərinin qiymətləndirmə xüsusiyyətləri araşdırılmış və elmi-nəzəri əsasları işlənib hazırlamışdı. İstintaqı zamanı daha çox məhkəmə-linqvistik, məhkəmə-psixoloji, məhkəmə psixoloji-psixiatrı, məhkəmə psix linqvistik, məhkəmə müəllifşünaslıq, məhkəmə dilşünaslıq, kompüter-texniki, məhkəmə-fonoskopik ekspertizaların təyini məqsədəuyğun olunması və ekspertiza icraatı qarşısında qoyulan sualların dairəsi müəyyən edilmişdi (Yablokov, 2000: 15 -17).

Məhkəmə ekspertizası rəylərinin tədqiqatçı, müstəntiq, prokuror və hakim tərəfindən mümkünlük, mötəbərlik və s. kimi meyarlara uyğun olaraq qiymətləndirilməsi, təşkilati-texniki və taktiki xüsusiyyətləri təhlil olunmuşdu. Bu kateqoriyalı cinayətlərə qarşı kompleks olaraq cinayət-hüquqi xarakterli tədbirlərlə və kriminalist aspektlərlə sistemli-struktur yanaşması müəyyən edilmiş, elmi araşdırmaların zəruriliyi ilə şərtlənən amillərlə formalaşması təsbit edilmişdir. Cinayətkarla mübarizənin gücləndirilməsinin cinayət-hüquqi əsaslarının təkmilləşdirilməsi zəruriliyi ilə şərtlən siyasi, ideoloji, irqi, dini, mlli dözülməzliyə və nifrətə əsaslanan ekstremist

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

təzahürlərinə qarşı müvafiq vəzifələr formula edilmişdi (Belkin, 2005: 230-231).

Ekstremizmlə bağlı cinayətlərin istintaqının elmi nəzəri, təşkilati-metodiki, taktiki-prosessual əsasların kontekstində ictimai təhlükəliliyi, cinayət məsuliyyətini müəyyən edən qanunvericiliyi, kriminalistik xarakteristikası, tipik istintaq şəraitləri və fərziyyələr, dindirmə taktikasının xasiyyətləri və prosessual aspektləri, axtarış, şəxsə müayinə, ifadələrin yoxlaması və s. istintaq hərəkətlərinin təşkili və keçirilməsi, kompüter şəbəkələrindən istifadə etməklə həyata keçirilən ekstremist fəaliyyətinin açılması və istintaq prosesində kriminalistik əhəmiyyət kəsb edən məlumatların alınması kimi məsələlərinin hüquqi aspektləri araşdırırılımışdı (Averyanova, 2008: 47-147).

Ekstremist fəaliyyətinin kriminalistik xarakteristikasının strukturu və əsas elementləri, bununla bağlı istintaqda taktiki və prosessual aspektləri, axtarışı, şəxsi müayinə, ifadələrin yoxlaması və digər istintaq hərəkətlərinin təşkili və təşkilati xüsusiyyətləri tədqiq edilmişdi. Bu istintaqı üzrə elmi-metodiki, təşkilati-texniki, taktiki-prosessual əsaslarının müasir reallıqları, mövcud hüquqi, sosial-iqtisadi münasibətlərin təcrübi əhəmiyyət kəsb edən məsələlər araşdırılmış və tövsiyələr işlənib hazırlanmışdır.

Ekstremist fəaliyyətinin istintaqın təşkilati-metodiki, taktiki-prosessual əsaslarının kriminastik xüsusiyyətlərinin elmi-nəzəri əsasları ilə cinayət-hüquqi prosesi, kriminalistika və məhkəmə ekspertizasının əməliyyat-axtarışı fəaliyyətinin tədqiqat üslubunun müəyyənləşdirməsi təmin edillmişdir.

Qeyd edək ki, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası, əməliyyat-axtarışı fəaliyyətinin əsas prinsiplərlə aparılması, məhkəmə ekspertizası çərçivəlisində rəylərin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

qiymətləndirilməsi, problemlərin məzmunu və ideya yeniliyi, təşkilati-metodiki təşkilati-taktiki və taktiki-prosessual xüsusiyyətləri ilə səciyyələnən məsələlərin hüquqi cəhətləri xarakterizə olunur.

Ekstremist xarakterli cinayətlərin istintaqı gedişində keçirilən ayrı-ayrı ekspertizaya rəylərinin ekspert tərəfindən rəyinin tamlığı və hərtərəfliyinin qiymətləndirilməsi təsdiqini tapmış metodikalara əsaslanaraq yoxlanması müasir məhkəmə ekspertiziyası səviyyəsi, nəticələrin informativliyinin əhəmiyyətini yüksəlməsi istiqamətində xüsusi əhəmiyyət kəsb edir. İstintaqı zamanı zəruri hallarda məhkəmə-texniki ekspertizası sənədinin hazırlanması, məzmunun dəyişdirilməsi üsulu, onun ilkin vəziyyətinin  müəyyən edilməsi, vaxtının təyin edilməsi, istifadə olunan alətlərin, vasitələrin, ləvazimatların  və materialların  müəyyən edilməsi məqsədi ilə digər məhkəmə ekspertizası növləri  təyin edilir. Cinayət üzrə müəyyən tələbləri ilə yaranma mənbəyinin, eyniləşdirici əlamətlərinin tam əks etmədiyi halda məhkəmə ekspertizalar qruplar üzrə diferensiasiya etmək olar.

Hesab edirik ki,  ekstremist  xarakterli cinayətlərin istintaqı ictimai dəyərlərlə deyil, sosioloji kontekstində müasir dövrün ekstremist prosesinin təhlikəliyinin və cinayətlərin mövqeyinin müəyyənləşdirilməsi təmin edir. Bunların qarışlıqlı əlaqəsi ekstremist yönümlü cinayətlərə törədilməsini və cinayətkar fəaliyyətini ifadə edən cinayətlərin kriminalistik əhəmiyyətli xüsusiyyətləri, ekstremist təşkilatların formalaşması və fəaliyyəti arasında olan korrelyasiya əlaqələrin əsaslı tövsiyələrin formalaşdırılmasına imkan verir.

Ekstremist xarakterli cinayətlərin istintaqı zamanı zəruri hallarda digər məhkəmə espertiası növləri təyin edilməsi məqsədəuyğun hesab olunur. Bu zaman təşkil edilən məhkəmə-

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

texniki ekspertizası sənədlərin hazırlanması, alətlərin, vasitələrin, ləvazimatların və materialların müəyyən edilməsi və icranın eyniləşdirilməsi məqsədi ilə aparılır. Cinayətlər üzrə ekspertizaların təyini problemlər üzrə müəyyən tələblərin, yaranma mənbəyinin və eyniləşdirici əlamətlərin zəruriliyini əks etdiyi və s. bu kimi hallarda ekspertizalar qrup təyin etmək olar. Ekspert rəyinin tamlığı, hərtərəfliyi, yoxlanması və qiymətləndirilməsi müasir məhkəmə ekspertiziyasında xüsusi əhəmiyyət kəsb edir. Ekspertlər bu kateqoriyalı cinayətlərin istintaqı gedişində keçirilən ekspertizaya rəylərinin qiymətləndirilməsi müasir metodikalar əsasında tətbiqi mütləqdur.

Ekstremist fəaliyyətin istintaqının cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarışı fəaliyyətində olan sosial-siyasi və mənəvi-əxlaqi problemlərin araşdırılması xüsusi diqqət tələb edir. Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizasının əməliyyat-axtarışı fəaliyyətində formalaşdırdığı stereotiplərin və əsas elementlərin üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir.

Ekstremistlə bağlı cinayətlərin istintaqında elmi-nəzəri və təşkilati-metodiki, taktiki-prosessual əsaslarının müqayisəli şəkildə araşdırılması Azərbaycan elmin dünya hüquq elminin tərkib hissəsi olaraq mühüm əhəmiyyəti və yeri olduğunu bir daha göstərir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Möhsünov, C.N.M. (2003). Bakı, s.445-495.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentarisi. (2016). F.Y.Səməndərovun redaksiyası ilə. Bakı, s.135-177.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

3. Kriminalistika dərslik. (2010). B.Əliyevin redaksiyası ilə. Bakı, s.392-396.
4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. (2016). C.N.H. Möhsünov, B.J.Kərimov və Ə.H.Hüseynovun redaksiyası ilə. Bakı, s.360, s.442-443.
5. Yablokov, N.P. (2000). Kriminalistika. Moskva, 23 s.
6. Xəlilov, E.M. (2007). Məhkəmənin və hakimlərin daxili inamı. Məhkəmə ekpertizası, kriminalistika və kriminologiyanın aktual problemləri. Elmi əsərlər məcmuəsi. Bakı, № 45, s.71-76.
7. Yermolovich, V.F. (2001). Kriminalisticheskaya kharakteristika prestupleniy. Minsk, s.15-17.
8. Averyanova, T.V. (2008). Kriminalistika: uchebnik. Moskva, s.47-147.
9. Belkin, R.S. (2005). Kriminalisticheskaya entsiklopediya. Moskva, s.40-41, 123-145.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 43-46
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 43-46
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Gülcahan Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
gulcahanquluzade@gmail.com

# ALİ TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI İLƏ BAĞLI AZƏRBAYCANIN BOLONYA PROSESİ ÖHDƏLİKLƏRİ

***Açar sözlər:*** *təhsil, Bolonya prosesi, təhsildə keyfiyyət təminatı, təhsil islahatı, Avrropa Ali Təhsil Məkanı*
***Keywords:*** *education, Bologna process, quality assurance, reforms in education, European Higher Education Arena*

Bolonya prosesi Avropa Ali Təhsil Məkanındakı ölkələr üçün ali təhsilin inkişafında əhəmiyyətli təsirə malikdir. Bu proses başlandığı ildən etibarən fərqli təhsil sistemlərində tətbiq olunaraq keyfiyyət təminatı, akademik heyət və tələbələrin mobilliyi, şəffaflıq, sosial əhatəlilik, ictimaiyyətə açıqlıq kimi bir sıra məsələlərin Avropa ali təhsil məkanında tətbiqinə yönəlmişdir. Hər iki-üç ildən bir keçirilən nazirlər konfransı zamanı tərəfdaş ölkələrin nazirləri bir araya gələrək mövzular üzrə əldə olunan nəticələri və hədəfləri müzakirə edirlər. Azərbaycan Bolonya prosesinə 2005-ci ildə Bergen Nazirlər Konfransının baş tutduğu il qoşulmuşdur. Həmin ildən bu günədək Bolonya bəyannaməsinin ölkələr qarşısına qoyduğu öhdəliklər ölkəmizə də şamil olunmuş, bu istiqamətdə davamlı olaraq inkişafa yol aça biləcək mümkün addımlar atılmışdır. Bolonya prosesinə çərçivəsində tələbə və akademik heyətin mobilliyi, ali təhsil idarəetməsində tələbələrin iştirakı, ali təhsildə ictimaiyyətin məsuliyyəti, sosial əhatəlilik,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

akademik muxtariyyət, keyfiyyətin təminatı kimi prinsiplər formalaşdırılmışdır. Sözügedən prinsiplər üzrə ölkələrin fəaliyyət tarixçəsi, mövcud vəziyyət və atılan addımlar təhlil olunaraq gələcəklə bağlı layihələr, qanunvericilikdə mümkün dəyişiklər, islahatlarla bağlı müəyyən nəticələr əldə olunur. Bu hesabatlarda Azərbaycanda da tələbə və akademik heyətin mobilliyi ilə bağlı fəaliyyətlərin yetərincə sürətli irəliləmədiyi ortaya çıxmış, bunun səbəbləri araşdırılmışdır. Mobilliyin qonşu ölkələrlə, eləcə də digər Avropa ölkələriylə müqayisədə ortalamadan zəif olmasının arxasında maddi çətinliklər, məlumatsızlıq, dil biliyi kimi məsələlərin olduğu ortaya çıxmışdır (Avropa Ali Təhsil məkanı Bolonya hesabatı, 2018: 124).

Hazırda bununla bağlı bir sıra addımlar atılmış, qrant layihələri işlənilmiş, bir çox universitetlərdə tələbələrin təhsil proqramlarına dil dərsləri salınmış, ikili diplom proqramları tərtib olunmuşdur.

Bu addımlar mobillik üzrə inkişafı dəstəkləsə də son illərdə tələbələrlə aparılan sorğular fəaliyyətlərin tam mənada tələbləri ödəmədiyini göstərir.

Hazırda dünyada baş verməkdə olan iqtisadi böhranlar, müharibələr, təbii fəlakətlər yerli universitetlərdə təhsil alan tələbələrdən də yan keçmir. Bolonya prosesinin sosial əhatəlilik prinsipləri bu və ya digər səbəblərdən təhsilini davam etdirməkdə çətinlik çəkən tələbələr üçün dəstəkləyici addımların atılmasını təklif edir (Avropa Ali Təhsil məkanı Bolonya hesabatı, (Avropa Ali Təhsil məkanı Bolonya hesabatı, 2018: 93). Ölkəmiz də öz coğrafi mövqeyinə görə müharibə və digər problemlərin insan həyatına təsirsiz ötüşmədiyi bir məkandadır. Bu səbəbdən təhsil alan tələbələrə təqaüdlə verməklə yanaşı, məcburi köçkünlər və onların birinci

**XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI**
**8 iyul 2023 / 43-46**
**XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH**
**8 july 2023 / 43-46**
**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

dərəcəli ailə üzvlərinin təhsil haqqından azad edilməsi ilə bağlı qanun qüvvəyə minmişdir. Sosial əhatəliliyin digər bir tərəfi olan inklüzivliklər bağlı orta məktəblərdə müəyyən tədbirlər həyata keçirilsə də hələlik ali təhsil müəssisələri üçün bu keçərli deyil.

Ali təhsildə keyfiyyətin təminatı kifayət qədər geniş bir mövzu olduğundan onun üç istiqamətdə təhlili daha məqsədə uyğundur.

Daxili keyfiyyət təminatının təhlili zamanı Azərbaycan universitetlərində Avropanın Ali təhsildə keyfiyyət təminatı ilə bağlı standart və təlimatlarının nə dərəcədə izlənildiyinə baxılmışdır (Bolonya prosesi Azərbaycan üzrə milli hesabat, 2015). Bu zaman daxili keyfiyyət təminatına aid olan tələbəyönümlü tədris və qiymətləndirmə ilə bağlı çətinliklər və narahatlıqlar müşahidə olunub. Belə ki, sorğu zamanı tələbələrin əksəriyyəti tədrisin proqramyönümlü olduğunu hesab etmişdir.

Professor-müəllim heyəti ilə bağlı araşdırmada isə müəllimlərin elmi ad və dərəcələrinə, gender bərabərliyi və yaş ortalamalarına baxılmışdır. Ali təhsil müəssisələrində qadın müəllimlərin sayca çoxluq təşkil etdiyi və əksər dövlət universitetlərində yaşı 50-dən yuxarı olan professor-müəllim heyətinin daha çox olduğu məlum olmuşdur (Bolonya prosesi Azərbaycan üzrə milli hesabat, 2015).

Xarici keyfiyyət təminatı və keyfiyyət təminatı agentliklərinin işi ilə bağlı isə öhdəliklərlə bağlı görülən işlərdən biri Təhsildə Keyfiyyət Təminatı Agentliyinin qurulmasıdır. Agentliyin fəaliyyəti təhsil müəssisələrinin akkreditasiyasını, ali təhsilə aid kvalifikasiyaların tanınmasını, təhsil fəaliyyətlərinin lisenziyalaşdırılmasını və s. əhatə edir. Agentliyin fəaliyyəti bu sahədə dövlət standartlarının davamlı

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

inkişafını və təhsil müəssisələrinin nüfuzunu artıraraq Bolonya prosesi ilə bağlı öhdəliklərə də düzgün əməl olunmasına xidmət edir.

## Ədəbiyyat

1. Avropa Ali Təhsil məkanı Bolonya hesabatı. (2018).
2. Bolonya prosesi Azərbaycan üzrə milli hesabat. (2015)

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Turan Darishov**
Middle East Technical University
bachelors
turandarishov@gmail.com

# THE WAGNER PMC AND THE REALIST THEORY OF IR

***Keywords:*** *realism, Ukraine, Wagner PMC, Bakhmut, International Relations, Mali, CAR*
***Açar sözlər:*** *realizm, Ukrayna, Vaqner PMC, Baxmut, Beynəlxalq Münasibətlər, Mali, CAR*

Following the demise of Idealism after the Second World War, the Realist theory of IR has gained dominance over alternative approaches to the study of inter-state affairs. However, the developments in the last decade have resulted in significant challenges for Realism’s state-centric understanding of politics and warfare. The Russian annexation of Crimea in 2014 – which made wide use of the new “hybrid warfare” tactics – was one of such challenges. Following Russia’s controversial annexation of Crimea, a group of private military contractors called the Wagner PMC gained significant media coverage. The recent conflict in Ukraine brought the Wagner Group back into the center of the attention of Western journalists. In this paper, we will analyze how the Wagner mercenary group's actions and structure challenge some of the established principles of Realism.

The term “private military company” might be misleading when referring to the Wagner Group. Unlike its Western counterparts, the Wagner and similar PMCs in Russia are characterized by their strong and often informal connections with the state machinery (Potocnak, Mares, 2022: 6). These

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

links help to explain how Russian private military enterprises can openly function under Russian law, which considers the establishment and funding of non-state armed groups an illegal activity. The participation of such groups in conflicts in which Russia is not officially involved is also unlawful, and here the Wagner mercenaries act outside of law again by taking an active role in battle missions in various parts of Africa. The heavy involvement of Wagner PMC operators in the Central African Republic (CAR) and Mali directly contradicts the Realist assumption about the primacy of states in the conduct of war. In both Mali and CAR, more than half of organized political violence committed by the Wagner PMC has been directed against non-combatants. While the Wagner PMC was able to engage in heightened levels of civilian targeting by working independently of the state in CAR, the Wagner mercenaries deployed in Mali were actually able to influence state forces into committing more political violence against civilians during joint operations between Wagner and the Mali armed forces (Armed Conflict Location, Event Data Project, 2022: 12). This indicates that a PMC such as Wagner is not only able to act independently of the state but also influence the state’s activities. The Realist theory of IR cannot adequately explain such trends, mainly because it assumes a “monopoly of violence” on the part of the state. However, an even more significant challenge to Realism emerged from Russia’s full-scale invasion of Ukraine.

The Russian invasion of Ukraine on February 24, 2022, and the subsequent heroic resistance of the Armed Forces of Ukraine caught many experts off guard. Among many other unique features associated with the conflict, such as the wide exploitation of off-the-shelf UAVs and the reintroduction of

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

WW1 style trench warfare, the vital role played by the Wagner PMC in the invasion was particularly shocking for war analysts around the globe. In areas like Bakhmut, the Wagner mercenaries had virtually taken complete control of planning and executing offensive actions against the Ukrainian forces. The Realists deny the significance of non-state actors on the battlefield, believing them to be nothing more than ordinary tools for achieving state interest. Yet, on the battlefields of Ukraine, it seemed like the Wagner PMC was operating more effectively than the regular Russian Army – which could not make any significant gains for months. However, it is essential to note that the Russian Ministry of Defense is the main supplier of ammunition and equipment for Wagner Group's activities. Still, the active participation of Wagner PMC in kinetic battle operations throughout the Donbas region contradicts the Realist conception of warfare. The events in Ukraine demonstrate Realism’s increasing inadequacy in explaining the rapid changes in international relations caused by the rising forces of globalization.

In conclusion, the actions of the extra-legal Wagner private military company have challenged some of the core assumptions of the Realist theory of IR in various ways. The Wagner Group’s vital role in the Russian invasion of Ukraine, along with its involvement in intra-state conflicts in CAR and Mali, has highlighted fundamental issues with Realism’s state-centric analysis of international relations. In light of these developments, Realist scholars must acknowledge the role of non-governmental actors and institutions.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

## References

1. Potocnak, A., Mares, M. (2022). Russia’s Private Military Enterprises as a Multipurpose Tool of Hybrid Warfare, The Journal of Slavic Military Studies, 35:2, p.181-204. DOI: 10.1080/13518046.2022.2132608
2. Armed Conflict Location, Event Data Project. (2022). Wagner Group Operations in Africa. Armed Conflict Location, Event Data Project. http://www.jstor.org/stable/resrep42841

**XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI**
**8 iyul 2023 / 51-53**
**XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH**
**8 july 2023 / 51-53**
**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Fatma Huseynova**
The V.Akhundov Scientific Research
Medical Preventive Institute
PhD in Medical Sciences
huseynova01049@gmail.com
**Shahla Aliyeva**
The V.Akhundov Scientific Research
Medical Preventive Institute
PhD in Biological Sciences
shahlaaliyeva1969@gmail.com
**Zivar Abseynova**
The V.Akhundov Scientific Research
Medical Preventive Institute
ziver.abseynova@mail.ru

# CULTIVATION OF *L.INFANTUM* AND *L.TROPICA IN VITRO* AFTER CRYOPRESERVATION

***Keywords:*** *L.infantum, L.tropica, cryopreservation, in vitro, fetal bovine serum*

***Açar sözlər:*** *L.infantum, L.tropica, kriokonservasiya, in vitro, öküz dölü zərdabı*

Leishmaniasis is a parasitic transmissible disease, mainly spread in tropical and subtropical countries. The disease is caused by protozoa belonging to the genus *Leishmania* and is transmitted to the human body by *Phlebotomus* ticks. Cutaneous (caused by

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

*L.tropica*), visceral (caused by *L.donovani, L.infantum*) and mucocutaneous (caused by *L.amazonensis*) forms of leishmaniasis are mentioned. According to the World Health Organization, 700,000 to 1.3 million cases of cutaneous leishmaniasis and 200,000 to 400,000 cases of visceral leishmaniasis are detected worldwide. Visceral leishmaniasis kills up to 30,000 people worldwide every year.

In order to carry out effective measures against the disease, the culture of the causative agent should be obtained. Obtaining the *in vitro* culture of the causative agents of the disease plays a major role in the study of the mechanism of their resistance to drugs and in the development of new drugs.

Parasite cultures may be lost for various reasons, or the degree of virulence may decrease many times over in long-term culture. In this regard, the preservation of the parasite stock in the cryobank is very important and can provide the researcher with parasite culture for new experiments at any time.

As it is known, after cryopreservation, a part of pathogens is destroyed, and some time is required for adaptation of the rest to *in vitro* culture conditions. In our study, we decided to increase the percentage of FBS (fetal bovine serum) in the complete nutrient medium to increase the viability of *Leishmania* parasites after long-term cryopreservation.

For this, after 7 months of cryopreservation (cryoprotectant DMSO), *L.tropica* and *L.infantum* were stored in RPMI-1640 nutrient medium with different concentrations of serum (FBS) for 45 days at a temperature of 27°C. Serum concentrations were taken in the range of 5, 10, 15, 20%. During the study period, the thawed parasites were almost undeveloped in 5 and 10% serum medium, and poorly developed in 15% serum medium.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

Parasitemia reached 650,000 on the 10th day of cultivation and 1 million on the 14th day of culture in a 20% concentration of serum in complete nutrient medium. After passage, parasites were transferred to 15% and 10% serum medium.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 54-57
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Elnarə Salahova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
salahova.elnara@bk.ru

# *BERBERİS* L. CİNSİNƏ AİD OLAN NÖVLƏRİN MEYVƏLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

***Açar sözlər:*** *dekorativ, çiçək, salxım, tozlanma, meyvə*
***Keywords:*** *ornamental, flower, cluster, pollination, fruit*

Qida, dərman və dekorativ xüsusiyyətlərə malik olan zirinc növlərində meyvə və toxum məhsuldarlığının öyrənilməsi nəzəri və praktiki əhəmiyyətə malikdir. *Berberis* L. növlərinin meyvəsinin rəngi və forması, ölçüsü və çəkisinin təyini xüsusi əhəmiyyət kəsb edir (Məmmədov, 2015: 196-222; Arifkhanov, Slavkina, 1981: 170; Butorova, Yanyuk, 2000: 24-25).

Meyvə və toxumun morfoloji xüsusiyyətləri İ.A.İvanova və N.M.Dudik (Ivanova, 1974: 43-54) metodikası üzrə öyrənilmişdir. Zirinc növlərinin meyvə və toxumunun ölçüləri üzrə riyazi hesablamalar Microsoft Excel proqramından istifadə etməklə fərdi kompyuterdə aparılmışdır (Fedorov 1975: 352).

Meyvələrin rəngi al qırmızıdan bənövşəyi və ya parlaq qarayadək dəyişir. *B.densifolia* Rusby. növündə qırmızı, *Berberis vulgaris* L. və *B. iberica* Stev & Fisch. ex DC. növlərində isə al-qırmızıdır. *B.amurensis* Rupr. və *B. koreana* Palib. növlərində meyvələrin rəngi parlaq qırmızı, *B. levis* L.- də bənövşəyi və *B.thunbergii* DC. növündə isə tünd qırmızıdır. *B.julianae* C.K.Schneid və *B.heteropoda* Schrenk. növlərində meyvələrin rəngi göyümtüldən qarayadək dəyişir. Meyvələrin forması

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

növdən asılı olaraq uzunsov (*Berberis vulgaris* L.) uzunsov silindrvari (*B.iberica* Stev & Fisch. Ex DC.) və ya uzunsov-yumurtavaridir (*B.densifolia* Rusby., *B.julianae* C.K.Schneid, *B. koreana* Palib.*)*. *B.amurensis* Rupr. və *B.levis* L. növlərində meyvənin forması oxşar olub ellipisvaridir (Cədvəl 1.).

Tədqiq etdiyimiz növlər üzrə meyvənin morfoloji xüsusiyyətləri biometrik göstəricilərinə görə fərqlənir. Meyvənin uzunluğu növlər üzrə 0,5-0,7 və 0,9-1,2 sm arasında dəyişilir. Meyvələr ölçü və çəkisinə görə 3 qrupa bölünmüşdür:

I qrup: iri ölçülü meyvələr – *Berberis vulgaris* L., *B. thunbergii* DC., *B.amurensis* Rupr. və *B.densifolia* Rusby. növlərində;

II qrup: orta ölçülü meyvələr - *Berberis julianae* C.K.Schneid, *B. iberica* Stev & Fisch. Ex DC., *B.heteropoda* Schrenk. və *B. koreana* Palib.növlərində*;*

III qrup: kiçik ölçülü meyvələr *Berberis levis* Franch. növündə.

Zirinc növlərinin 100 meyvəsinin kütləsi 6,5 qramdan (*Berberis iberica* Stev & Fisch. Ex DC.) 10,0 qram (*B. thunbergii* DC.) arasında dəyişilir.

**Cədvəl 1.**

***Berberis* L. növlərinin meyvələrinin müqayisəli tədqiqi**

| Növlər | Meyvənin | | | 100 meyvənin kütləsi (orta), qr | 100 toxumun kütləsi (orta), qr |
|---|---|---|---|---|---|
| | rəngi | Forması | uzunluğu, sm | | |
| *Berberis vulgaris* L. | al qırmızı | Uzunsov | 0,8-1,1 | 8,5 | 2,55 |
| *B. iberica* Stev & Fisch. Ex DC | al qırmızı | uzunsov silindrvari | 0,7-1,0 | 6,5 | 2,0 |

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

| | | | | | |
|---|---|---|---|---|---|
| *B.densifolia* Rusby | Qırmızı | uzunsov yumurtavari | 0,8-0,9 | 7,5 | 2,25 |
| *B.amurensis* Rupr. | parlaq qırmızı | Ellipisvari | 0,9-1,1 | 8,5 | 2,55 |
| *B. levis* Franch. | bənövşəyi | Ellipis vari | 0,5-0,7 | 7,5 | 2,25 |
| *B.thunbergii* DC. | tünd qırmızı | Uzunsov | 0,9-1,2 | 10,0 | 3,0 |
| *B.julianae* C.K.Schneid | göyümtül-qara | Yumurta vari | 0,7-0,9 | 8,5 | 2,55 |
| *B. koreana* Palib. | parlaq qırmızı | uzunsov-yumurta vari | 0,8-1,0 | 7,5 | 2,25 |
| *B.heteropoda* Schrenk. | göyümtül və ya parlaq qara | Şarvari | 0,8-1,0 | 7,5 | 2,25 |

Tədqiqat nəticəsində məlum oldu ki, hər növ üzrə çiçək salxımındakı çiçəklərin müəyyən faizi tozlanaraq, mayalanma prosesi nəticəsində meyvə bağlayır. Belə ki, bu göstərici *B.vulgaris* L., *B.densifolia* Rusby. və *B.julianae* C.K.Schneid növlərində 77-80%, *B.iberica* Stev & Fisch. Ex DC., *B.thunbergii* DC. və *B.heteropoda* Schrenk. növlərində 64-70%, *B.koreana* Palib., *B.amurensis* Rupr. və *B.levis* Franch. növlərində 55-63 % olmuşdur. Tədqiq olunan növlər üzrə meyvələrin 60-72%-də 1-2 toxum, 28-40%-də isə 3 toxum aşkar edilmişdir (100 meyvə üzrə).

Meyvədəki toxumların sayı bilavasitə meyvənin ölçüsündən asılıdır, belə ki, iri meyvələrdə toxumların sayı xırda meyvələrə nisbətən çox olur. Zirinc növlərində çiçəkləmə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

mərhələsində olduğu kimi meyvələrin yetişmə dövrü də eyni olmur. Lakin bu bioloji proses heç də meyvələrin eyni vaxtda yığılmasına maneçilik törətmir, yetişmiş meyvələr uzun müddət kolun üzərində qalır. Meyvələrin bitki üzərində qalması dekabr ayının axırlarına qədər müşahidə edilir.

## Ədəbiyyat

1. Məmmədov, T.S. (2015). Azərbaycan dendroflorası. 3 clddə. Bakı: Səda nəşr., s.196-222.
2. Arifkhanov, K.T., Slavkina, T.I. (1981). Vidi roda Berberis L., introdutsirovannikh Botanicheskim sadom AN UzSSR. Dendrologiya Uzbekistana. Tashkent, s.3-170.
3. Butorova, O.F., Yanyuk, Yu.V. (2000). Introduktsiya vidov barbarisa v Botanicheskom sadu im. V.M.Krutovskogo. Krasnoyarsk: Plodovodstvo, semenovodstvo, introduktsiya dreves, rasteniy, s.24- 25.
4. Ivanova, I.A. (1974). K metodike opisaniya morfologicheskikh priznakov semyan. Sostavlenie opredeleniy rasteniy po plodam i semenam. N.M.Dudik. Kiev: Naukova dumka, s.43-54.
5. Fedorov, Al.A. (1975). Atlas po opisatelnoy morfologii visshikh rasteniy. Tsvetok. Z.T.Artyushenko Leningrad: Iz-vo Nauka, 352 s.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 58-60
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 58-60
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Natavan Bakhshaliyeva**
Baku State University
Ph.D in Biology
natavanscience@gmail.com

# HEALING PROPERTIES OF PERSIMMON (*DIOSPYROS KAKI L.)*

***Keywords:*** *persimmon, fruit, iodine, disease, food, antioxidant*
***Açar sözlər:*** *xurma, meyvə, yod, xəstəlik, qida, antioksidant*

Persimmon (*Diospyros kaki L.*) has become the focus of attention in recent years due to the attractive orange color of the fruit, its unique taste and structure, and its richness in antioxidants and phenolic compounds. Its fruits are widely used in food due to their flavor properties. The plant also has medicinal properties. Native to China Persimmon (*Diospyros kaki L.*) spread from China to Japan and then to other countries. Dates have been cultivated in Azerbaijan since ancient times. In Azerbaijan, the Oriental persimmon variety is widespread in areas of the eastern and western Greater Caucasus. In the northern regions of the Lesser Caucasus, in the mountainous part of Talysh, on the Lankaran and Kura-Araz lowlands, in the Alazan-Eirichai valley and on the Bozgir plateau. Because of its tendency to wilting and sensitivity to negative influences, Caucasian persimmon (*Diospyros lotus L.*) is included in the "Red Book" of Azerbaijan.

Recent studies have shown that the fruit has cholesterol and blood pressure lowering properties, strengthens the immune system, and plays an important role in the prevention of digestive system disorders and cancer diseases that are

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

common today. Oriental Persimmon fruits can be used for fresh consumption as well as dried and frozen. Especially in Far East countries, very acrid varieties with high dry matter and unsuitable for fresh consumption are dried. In addition, the fruits are frozen and marketed during the winter months. Since persimmons that are not ripe enough have a very bitter taste, the dates to be frozen must be fully ripe. Persimmons are pureed and frozen, and this puree is mostly used for making marmalade, jelly, nectar, cake, sauce, ice cream, cream and pudding.

In this study, 20 varieties of Oriental persimmon (*Diospyros kaki L.)* spread in the Sheki-Zagatala economic region of Azerbaijan were selected as material. The fully ripe fruits of the date varieties specified as research material were taken and the amounts of macro and micro elements in the fruits were examined according to the regions.The amount of macro and micro elements in fruits was determined by using X-ray fluorescence method in the Omega-4000 (INNOV-x, USA) device of Azerbaijan National Nuclear Center. Oriental Persimmon fruits are quite promising in the treatment of iodine deficiency.

As we know, iodine (I) is the most important element for the human body. The World Health Organization (WHO) announced that 1.5 billion people in the world are suffering from iodine deficiency. Iodine deficiency in the body causes enlargement of the thyroid gland and the formation of goiter. Currently, 300 million people in the world have various forms of goiter. A person over the age of 12 should consume 150 micrograms (mcg) of iodine per day. The Sheki-Zagatala region is the most prominent region in the country due to iodine deficiency.

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14**

Therefore, to eliminate this problem, residents of the region are recommended, among other measures, to use food made from the fruits of the Oriental persimmon (*Diospyros kaki L.*) plant, which is rich in iodine and other micronutrients.

XIV BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR KONFRANSI
8 iyul 2023 / 61-63
XIV INTERNATIONAL CONFERENCE OF SCIENTIFIC RESEARCH
8 july 2023 / 61-63
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

**Cəmilə Əliyeva**
V.Y.Axundov adına Elmi Tədqiqat
Tibbi Profilaktika İnstitutu
rehimova.85c@mail.ru
**Arzu İsmayılova**
V.Y.Axundov adına Elmi Tədqiqat
Tibbi Profilaktika İnstitutu
arzu_bio@mail.ru
**Maya Fərzəliyeva**
V.Y.Axundov adına Elmi Tədqiqat
Tibbi Profilaktika İnstitutu
mayafarzaliyeva04@gmail.com
**Sona Hacıyeva**
V.Y.Axundov adına Elmi Tədqiqat
Tibbi Profilaktika İnstitutu
shaciyeva03@gmail.com

# AZƏRBAYCANDA 2020-2022-Cİ İLLƏR ƏRZİNDƏ C VİRUS HEPATİTİ İLƏ XƏSTƏLƏNMƏNİN EPİDEMİOLOJİ TƏHLİLİ

***Açar sözlər:*** *hepatit C, epidemioloji təhlil, hepatit C epidemioloji xüsusiyyətləri, hepatit C yoluxma yolları, hepatit C simptomları*

***Keywords:*** *hepatitis C, epidemiological analysis, hepatitis C epidemioloji feature, ways of hepatitis C infection, hepatitis C symptoms*

Picornaviridae fəsiləsinin Hepacivirus cinsinə aid olan hepatit virusları qaraciyər toxumasının diffuz iltihabını törədir (latınca - hepar - qaraciyər). A, B, C, D, E, G hepatit

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

viruslarından dünya əhalisi arasında ən çox C hepatit virusu (HCV) yayılmışdır. Əksər hallarda HCV-nin simptomları müşahidə olunmur və xroniki olaraq qalır. Xəstəlik uzun müddət davam etdikdə qaraciyəri zədələyir və qaraciyər sirrozu ilə nəticələnir. Ümumidunya Səhiyyə Təşkilatının (ÜST) rəsmi məlumatına əsasən dünya əhalisi arasında 58 milyon insan xroniki, 150-200 milyon insan isə C hepatit virusunun daşıyıcısıdır. Bu insanların əksəriyyəti üçün analizlər və müalicə əlçatmaz olaraq qalır. Hər il təxminən 1.5 milyon yeni infeksiya qeydə alınır. ÜST 2030-cu ilə qədər HCV infeksiyası ilə xəstələnmə sayını 90% azaltmağı hədəfləyir. Hazırda hepatit C virusunun 11 genotipi aşkarlanmışdır. Aparılan tədqiqat nəticələrinə görə Azərbaycanda yayılma etibarı ilə 1-ci genotip üstünlük təşkil edir.

2020-2022-ci illər ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi statistika hesabatına (1 nömrəli forma) əsasən Azərbaycanda C hepatiti virusuna ümumilikdə 139 nəfər yoluxmuşdur.

2020-ci ildə 20 hadisə qeydə alınmışdır. Onlardan 10 nəfər (50 %) qadınlar idi. 18 yaşdan yuxarı 18 nəfər (90 %), 0-17 yaş arası 2 nəfər (10 %) qeydə alınmışdır. Qeydə alınan bu 2 hadisə 5-13 yaş qrupuna aid olmuşdur. Xəstələr arasında 17 nəfər (85 %) isə kənd sakini idi. Kənd sakinlərindən 0-17 yaş qrupunda 2 nəfər (11.76 %) yer almışdır.

2021-ci ildə 68 hadisə qeydə alınmışdır. Onlardan 25 nəfər (36.8 %) qadınlar idi. 18 yaşdan yuxarı 53 nəfər (78 %), 0-17 yaş qrupuna isə 15 nəfər (22 %) daxil idi. 15 nəfərdən 2 uşaq (14 %) 0-1 yaş, 3 uşaq (20 %), 1-4 yaş, 10 uşaq (66 %) 5-13 yaş qruplarına aid olmuşdur. Kənd sakinlərini 49 nəfər (72.05 %) təşkil edirdi. Onlardan 11 nəfər (22.5 %) 0-17 yaş qrupuna aid olan uşaqlar olmuşdur.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/14

2022-ci il ərzində 51 hadisə qeydə alınmışdır. Onlardan 16 nəfər (32 %) qadınları təşkil edirdi. 18 yaşdan yuxarı 44 nəfər (86.28 %), 0-17 yaş 7 nəfər (13.72 %) olmuşdur. 0-17 yaş qrupuna daxil olan 7 nəfərin 1-i (14.28 %) 0-1 yaş, 2-i (28.58 %) 1-4 yaş, 3-ü (42.86 %) 5-13 yaş, 1-i (14.28 %) 14-17 yaş qrupuna daxil olmuşdur. 37 (72.54 %) nəfər kənd sakinlərini təşkil edirdi. Kənd sakinlərindən 3 nəfər (8.1 %) 0-17 yaş qrupuna aid olmuşdur.

2020-2022-ci illərdə apardığımız rəsmi epidemioloji (statistik) təhlilə əsasən Azərbaycanda C hepatiti virusuna ən cox yoluxma 2021-ci ildə qeydə alınmışdır. Bu say 3 il ərzində qeydə alınan ümumi hadisələrin 48.9 %-ni təşkil edir. Cinsə görə bölgüdə kişilər 78 nəfər (63.3 %) olmuşdur. 115 nəfər (82.8 %) 18 yaşdan yuxarı, 24 nəfər (17.2 %) 0-17 yaş qrupuna aiddir. 0-17 yaş qrupundakı uşaqlar və yeniyetmələrdən - 3-ü (12.5 %) 0-1 yaş, 5-i (21 %) 1-4 yaş, 15-i (62.5 %) 5-13 yaş, 1-i (4 %) 14-17 yaş qrupunda yer almışdır. Yoluxanlardan 103 nəfər (74.1%) kənd sakinləri olmuşdur. Kənd sakinlərinin 16-ı (15.5 %) 0-17 yaş qrupuna aid olmuşdur. Apardığımız epidemioloji təhlilə əsasən nəticə etibarı ilə, xəstələnmələrin çoxu kənd əhalisi və 18 yaşdan yuxarı kişilər arasında qeydə alınmışdır.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Əsmər Hüseynova**
Müasir teatrşünaslıqda teatr və dram əlaqələri
(Əsəd Cahangirin yaradıcılığı əsasında) ..................................7
**Aysel Şükürova**
İngilis dilində nitq portreti anlayışı ........................................11
**Leyla Nəbiyeva**
Böyük Turan layihəsi: Əbədi dostluq və əməkdaşlığın
parlaq gələcəyi …......................................................................14
**Şəhanə Əsgərova**
Fransız dilində ümumişlək metaforalar dilin lüğət tərkibini
zənginləşdirən amillərdən biri kimi ........................................19
**Etibar Əhmədov**
Mübahisələrin sülh yolu ilə həlli sahəsində regional
qurumların BMT ilə qarşılıqlı əməkdaşlığı ............................22
**Zumrud Yusifova**
The theoretical and practical importance of the
studying Karabakh toponyms ................................................27
**Aytən Mütəllimzadə**
Sosial mediada "ideal" obrazların özünüqiymətləndirməyə
təsiri ..........................................................................................30
**Nigar Ağayeva**
Artur Klarkın yaradıcılığında utopiya və distopiya
janrlarının sintezi .....................................................................32
**Tamerlan Qurban**
Ekstremist fəaliyyətin cinayət-hüquqi
əsasları .....................................................................................36

**Gülcahan Sadıqova**
Ali təhsildə keyfiyyət təminatı ilə bağlı Azərbaycanın Bolonya prosesi öhdəlikləri ....................................................43
**Turan Darishov**
The Wagner PMC and the realist theory of IR .......................47

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Fatma Huseynova, Shahla Aliyeva, Zivar Abseynova**
Cultivation of L.*infantum* and L.*tropica in vitro* after cryopreservation ......................................................................51
**Elnarə Salahova**
*Berberis L.* cinsinə aid olan növlərin meyvələrinin müqayisəli tədqiqi ...........................................................................54
**Natavan Bakhshaliyeva**
Healing properties of persimmon (*Diospyros kaki L.)* ...........58
**Cəmilə Əliyeva, Arzu İsmayılova**
**Maya Fərzəliyeva, Sona Hacıyeva**
Azərbaycanda 2020-2022-ci illər ərzində C virus hepatiti ilə xəstələnmənin epidemioloji təhlili .......................61

İmzalandı: 07.07.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 4.25 ç.v.
Sifariş: 653

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru